QANUN № 01 (375), 2026, s. 32-35



**Cəmilova Könül Bəxtiyar qızı,**
Bakı Dövlət Universitetinin "İnzibati hüquq, maliyyə hüququ, informasiya hüququ" ixtisası üzrə doktorantı
E-mail: konuljamilova@gmail.com

**UOT 342.9**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4007**

# XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ ƏLEYHİNƏ İNZİBATİ XƏTALAR

***Açar sözlər:*** *ətraf mühitin mühafizəsi, xüsusi mühafizə olunan təbiət əraziləri, İnzibati Xətalar Məcəlləsi, məsuliyyət, cərimə.*

***Ключевые слова:*** *охрана окружающей среды, особо охраняемые природные территории, Кодекс об административных правонарушениях, ответственность, штраф.*

***Keywords:*** *environmental protection, specially protected natural areas, Code of Administrative Offenses, liability, fine.*

Ətraf mühitin mühafizəsi sahəsində əsas qanunvericilik aktları "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası qanunlarıdır. Bu qanunlarda ətraf mühitin və təbii sərvətlərin mühafizəsi ilə bağlı əsas prinsip və normalar əks olunmuşdur. Bu qanunlarda mövcud olan boşluqlar ətraf mühitin və təbii sərvətlərin mühafizəsi ilə bağlı problemlərin əsasını təşkil edir.

Avropa ölkələrində ətraf mühit sahəsində qanunvericilik aktları daha sistemli hazırlanmışdır. Məsələn, Almaniya Federativ Respublikası "Təbiətin mühafizəsi və landşaflara qulluq haqqında" Qanunla (Gesetz über Naturschutz und Landschaftspflege) ətraf mühitin mühafizəsinin 2 növü müəyyən olunmuşdur:

1. ətraf mühitin ümumi mühafizəsi;
2. ətraf mühitin xüsusi mühafizəsi.

Azərbaycan Respublikası qanunvericilik sistemində bu mühafizə isə ayrı-ayrı qanunlarla tənzimlənir. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ətraf mühitin mühafizəsinin ümumi müddəaları nəzərdə tutulmuşdur. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanunu ilə isə ətraf mühitin xüsusi mühafizəsi tənzimlənir.

Bu qanuna görə xüsusi mühafizə olunan təbiət əraziləri – xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır. Xüsusi mühafizə olunan təbiət obyektləri – elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimli zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir [2].

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin inzibati hüquqi rejiminin əsas xüsusiyyətləri aşağıdakılardır:

- bioloji müxtəlifliyin və təbii ekoloji sistemin dövlət tərəfindən qorunub saxlanması;
- xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən məqsədli istifadə, habelə elmin, mədəniyyətin, təhsilin və maarifin, turizmin və rekreasiyanın inkişafı üçün səmərəli istifadə edilməsi;
- xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində dövlət tənzimlənməsi və nəzarət;
- xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadənin qanunla nəzərdə tutulmuş hallarda ödənişli olması.

Azərbaycan Respublikasının ərazisində beynəlxalq, respublika və bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz. Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələrin mülkiyyətinə verilə bilər. Mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahələri olan fiziki və hüquqi şəxslər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yarada bilərlər.

Xarici ölkələrdə ətraf mühitin həm ümumi həm də xüsusi mühafizəsinin pozulmasına görə inzibati xətalar geniş şəkildə müəyyən olunmuşdur. Lakin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri əleyhinə inzibati məsuliyyət bir maddədə əksini məhdud şəkildə tapmışdır. İnzibati Xətalar Məcəlləsinin 242-ci maddəsində xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutulmuşdur:

**Xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə qaydalarının, həmin ərazilərin mühafizə rejiminin pozulmasına görə -**

fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir [1].

Almaniya Federativ Respublikasının "Təbiətin mühafizəsi və landşaflara qulluq haqqında" Qanununun (Gesetz über Naturschutz und Landschaftspflege) 44-cü maddəsində xüsusi qorunan flora və fauna ilə bağlı bəzi inzibati xətalar müəyyən olunmuşdur:

1) xüsusi mühafizə olunan növlərin vəhşi heyvanlarını təqib etmək, tutmaq, onlara xəsarət yetirmək  yaxud onların inkişaf mərhələlərini təbiətdən çıxarmaq, zədələmək;

2) ciddi mühafizə olunan növlərin vəhşi heyvanlarını və Avropa quş növlərini onların çoxalması, yetişdirilməsi, tükənməsi, qışlaması və miqrasiya dövrü zamanı əhəmiyyətli dərəcədə narahat etmək (əhəmiyyətli narahatlıq bir növün yerli populyasiyasının vəziyyəti pisləşdikdə);

3) xüsusi mühafizə olunan heyvan növlərinin vəhşi heyvanların çoxalma və ya istirahət yerlərinin təbiətdən çıxarılması, zədələnməsi;

4) xüsusi mühafizə olunan növlərin yabanı bitkilərini və ya onların inkişaf formalarını təbiətdən çıxarmaq, onları və ya onların məskunlaşdığı yerləri zədələmək və ya məhv etmək;

5) xüsusi mühafizə olunan növlərin heyvan və bitkilərinə sahiblik etmək və ya himayə etmək, onlara sahib olmaq və ya mühafizə etmək, yaxud emal etmək və ya müalicə etmək.

6) xüsusi mühafizə edilən növləri satmaq, almaq, satışa və ya alqı-satqıya təklif etmək, satış üçün ehtiyatda saxlamaq və ya daşımaq, mübadilə etmək və ya istifadəyə vermək üçün təhvil vermək;

7) xüsusi mühafizə edilən növləri kommersiya məqsədləri üçün əldə etmək, nümayiş etdirmək [3].

Bu inzibati xətaların Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində təsbit olunması bu sahədə təcrübədə yaranan problemlərin qarşısının alınmasına kömək edəcəkdir.

Bundan əlavə, xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonaları əleyhinə inzibati xətalar termini də qanunvericilik sisteminə gətirilməsi məsələləri nəzərdən keçirilməlidir. Bu zonada həyata keçirilməsi qadağan olunan fəaliyyət növləri "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanunun 10-1.7-ci maddəsində müəyyən olunmuşdur. Bu qadağaların pozulmasına görə ayrıca məsuliyyət isə İnzibati Xətalar Məcəlləsində təsbit olunmamışdır.

Qeyd olunan boşluqlardan əlavə, ümumilikdə qanunvericilik aktlarında terminologiyanın zəif işlənilməsi, ayrı-ayrı xüsusi mühafizə olunan təbiət ərazilərinə (qoruq, milli park və s.) münasibətdə inzibati xətaların diferensiallaşdırılmaması və sanksiyaların əksəriyyətinin yalnız cərimə formasında olması əsas problem olaraq qalır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi // 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46960

2. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının 2000-ci il 24 mart tarixli 840-IQ nömrəli Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/617

3. Almaniya Federativ Respublikasının "Təbiətin mühafizəsi və landşaflara qulluq haqqında" Qanunu (Gesetz über Naturschutz und Landschaftspflege): [Elektron resurs]/URL: https://www.gesetze-im-internet.de/bnatschg_2009/BJNR254210009.html

4. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının 1999-cu il 8 iyun tarixli 678-IQ nömrəli Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3852

**Джамилова Конул Бахтияр гызы,**
докторант Бакинского государственного университета
по специальности «Административное право,
финансовое право, информационное право»

## АДМИНИСТРАТИВНЫЕ ПРАВОНАРУШЕНИЯ ПРОТИВ ОСОБО ОХРАНЯЕМЫХ ПРИРОДНЫХ ТЕРРИТОРИЙ

### РЕЗЮМЕ

Автором статьи исследованы административные правонарушения в отношении особо охраняемых природных территорий и объектов. В ходе исследования проанализированы законодательные акты зарубежных стран. Внесены предложения по устранению пробелов в Кодексе об административных правонарушениях.

**Jamilova Konul Bakhtiyar,**
Doctoral Student, "Administrative law, financial law, information law" specialty, Baku State University

**ADMINISTRATIVE OFFENCES AGAINST SPECIALLY PROTECTED NATURAL AREAS**

**SUMMARY**

The author investigates administrative offenses against specially protected natural areas and objects. During the research, legislative acts of foreign countries were analyzed, and certain suggestions were made regarding gaps in the Code of Administrative Offenses.

**Redaksiyaya daxilolma tarixi: 15.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 19.01.2026**
**Çapa qəbul olunma tarixi: 21.01.2026**